UOT:37.

# TƏHSİLİN DÜNYA MODELLƏRİNƏ İNTEQRASİYASININ YOLLARI (təbiət fənlərin nümunəsində)

***Cəlilova İlahə Cəlil qızı***
***Gəncə Dövlət Universiteti***
***ilahe.celilova1981@mail.ru***

**Xülasə:** *"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində təhsilin inteqrativlik prinsipi ilə təşkilinə dair mühüm müddəalar mövcuddur. Azərbaycan təhsil sistemində tədris olunan fənlərin say çoxluğu və bu baxımdan vaxt məhdudiyyətinin yaranması təhsil mütəxəssislərini məcbur edir ki, onlar müxtəlif fənlərin inteqrasiya olunması məsələsi üzərində fikir yürütsünlər. Xarici ölkələrin təhsil sistemlərini və ibtidai təhsil səviyyəsini nəzərdən keçirərkən oxşar fənlərin tədris olunduğunun şahidi oluruq. Daha çox sivil fənlərin öyrədilməsi sahəsində oxşarlıq və eyniliklər nəzərə çarpır. incəsənətə dair fənlərin (musiqi, təsviri incəsənət və s) birgə tədris olunduğu Art (Sənət) fənni və texniki elmləri özlərində birləşdirən Science (Elm) fənləri əksər ölkələr üçün oxşarlıq təşkil edir.*

**Açar sözlər:** kurikulum modeli, inteqrasiya, ibtidai təhsil, təhsil sistemi, modernləşdirmə
**Key words**: curriculum model, inteqration, elementary education,the education system, modernization
**Ключевые слова:** модель учебного плана, интеграция, начальное образавание, система образавания, модернизация

Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində çox böhranlı və ağır bir zaman kəsiyi yaşamış, ancaq bütün bunlara rəğmən dirçələrək özünü dünyaya tanıtmış və suverenliyini təsdiq etmiş bir dövlətdir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində təhsilin inteqrativlik prinsipi ilə təşkilinə dair mühüm müddəalar mövcuddur. Azərbaycan təhsil sistemində tədris olunan fənlərin say çoxluğu və bu baxımdan vaxt məhdudiyyətinin yaranması təhsil mütəxəssislərini məcbur edir ki, onlar müxtəlif fənlərin inteqrasiya olunması məsələsi üzərində fikir yürütsünlər. Hazırda bu proses müzakirələrə cəlb edilmişdir və baza cəhətdən yaxınlığı olan bir sıra fənlərin inteqrasiya olunması gündəmdədir.

Qeyd etmək lazımdır ki, fənlərin inteqrativ kontekstdə tədrisi xarici ölkələrin təcrübəsində geniş yayılmış və özünü doğrultmuş bir məsələdir. Şagirdlər həm vaxta qənaət edir, həm də tədrisi əsaslı və inteqrativ şəkildə mənimsəyə bilirlər.

İbtidai təhsil daxili potensial baxımından təhsil sisteminin ən önəmli mərhələlərindən biridir. Dünyanın əksər inkişaf etmiş ölkələri öz mükəmməl təhsil sistemi ilə fərqlənməkdədir. Təhsil sisteminin düzgün qurulmasında isə bilavasitə məktəbəqədər və ibtidai təhsilin rolu əhəmiyyətli dərəcədədir. Uşaqlarda təhsilin sistemli verilməsinin və fasiləsizliyinin təmin edilməsi üçün ibtidai təhsil mərhələsində verilən baza biliklərinin xüsusi əhəmiyyəti vardır.

Azərbaycan təhsil sistemi müstəqillik illərindən sonra tamamilə yeni mərhələyə qədəm qoydu. Aparılan təhsil islahatı fonunda təhsilin məzmun, forma və strukturunda dəyişikliklər baş verdi. Həyata keçirilən yeniliklər, tətbiq olunan kurikulumlar müxtəlif xarici ölkələrin təhsil təcrübəsindən yararlanmaqla, eyni zamanda milli təhsil sistemimizə uyğunlaşdırılmaqla əxz olundu.

Azərbaycanda ibtidai təhsil müddəti 4 il təşkil edir. Bu 4 il ərzində şagirdlərə öyrədilməli olan fənlər, reallaşdırılması nəzərdə tutulan standart, mənimsənilməsi və tətbiq olunması planlaşdırılan məzmun, həyati bacarıqlar ümumiləşdirilir. Şagirdlərin yaş və fərdi

səviyyəsinə uyğun bilik və bacarıqlar müəyyənləşdirilir. İbtidai sinif müllimi tərəfindən (bəzən fənn müəlimləri də dərs keçir) 4 il ərzində şagirdlərə bilik, bacarıqlar mənimsədir və onlar təhsilin növbəti səviyyəsi üçün hazırlanırlar.

İbtidai təhsil müddətinin azlığı bir sıra çətinliklər yaradır. Dünyanın əksər inkişaf etmiş ölkələrində ibtidai təhsilin müddəti 5 və ya 6 il təşkil edir. Bu onu göstərir ki, ibtidai təhsil müddətində mənimsənilməsi nəzərdə tutulan məzmunu 4 il müddətinə təhsilalanlara çatdırmaq mümkün deyil. Şagirdlərin yaş və fərdi xüsusiyyətləri tələb edir ki, onlar kiçik yaşlarında çox yüklənməsinlər. öyrədilməsi nəzərdə tutulan biliklər isə baza xarakterli olub əsasən yaradıcılıqla səciyyələnməlidir.

Xarici ölkələrin təhsil sistemlərini və ibtidai təhsil səviyyəsini nəzərdən keçirərkən oxşar fənlərin tədris olunduğunun şahidi oluruq. Daha çox sivil fənlərin öyrədilməsi sahəsində oxşarlıq və eyniliklər nəzərə çarpır. incəsənətə dair fənlərin (musiqi, təsviri incəsənət və s) birgə tədris olunduğu Art (Sənət) fənni və texniki elmləri özlərində birləşdirən Science (Elm) fənləri əksər ölkələr üçün oxşarlıq təşkil edir.

İnkişaf etmiş bir çox Avropa ölkələri özlərinin təhsil sistemi, forması, strukturu ilə bir-birindən fərqlənsələr də, əsas diqqəti keyfiyyət amilinə yönəldirlər ki, bu da özünü ölkənin ümumi inkişafında təzahür etdirir.

Təhsil qlobal anlayış olduğu üçün sərhədsizdir. İstənilən ölkə özünün təhsili və iqtisadiyyatı sayəsində dayanıqlı və inkişaf etmiş struktura malik olur. Təhsilin nisbətən zəif inkişaf etdiyi və ya mövcud olmadığı toplumlarda insanlar maddi cəhətdən də çatışmamazlıqlarla üzləşirlər. Başqa sözlə, təhsili güclü olan dövlər həm də güclü iqtisadi imkanlara malik olur və sürətlə inkişaf edir. Təhsil bu anlamda dövlətlərin və müəllimlərin yeganə mövcudluq üsulu kimi özünü göstərir.

Təhsilin harada yaranması, ilkin mövcudluğu müxtəlif tədqiqatçıların diqqət mərkəzində olmuş və bu məsələyə müxtəlif aspektlərdən fərqli yanaşmalar özünü büruzə vermişdir. Bildiyimiz kimi təhsilin ən qədim mövcudluğu və sistemli inkişafı antik dövrə, qədim şərq mədəniyyətinin çiçəklənməsi dövrünə təsadüf edir. Daha doğrusu müxtəlif tarixi mənbələr və tədqiqatçıların əsərləri, daş kitabələr, qazıntılar nəticəsində aşkara çıxarılmış maddi və mənəvi mədəniyyət nümunələri, memarlıq abidələri belə düşünməyimizə əsas verir.

Elmi araşdırmalar nəticəsində təhsilin inkişafını müəyyən bir dövrlə xarakterizə etsələr də, təhsilin daha qədim bir inkişaf tarixinə maılik olduğu məlumdur. Bizdən öncəki sivilizasiyaların mövcudluğu, çətin strukturlu tikililərin günümüzə qədər gəlib çatması bizə bildiri ki, təhsil – öyrətmə və öyrənmə çox qədim tarixi köklərə malikdir.

Bizim müasir dövrdə tətbiq etdiyimiz təhsil modellərinin də özünəməxsus tarixi var. Hələ XII əsrdə şərq alimlərinin əsərlərində izlərinə rast gəldiyimiz sinif-dərs sistemi XVII əsrdə Y.A.Komenski (1592-1670) və V.Ratke (1571-1635) tərəfindən işlənilərək xüsusi qəlibə salınmışdır.

Sinif-dərs sisteminin inkişafı özünün sonrakı mərhləsində müxtəlif dəyişikliklərə uğramış, yeni forma və məzmunda tətbiq olunmağa davam etmişdir. Lakin təhsilin əsas formalaşdırılması üsulu olan dərsin 5 ünsürü hələ də saxlanılmaqdadır. baxmayaraq ki, müasir dövrdə dərslərin tədris olunmasında mərkəzdənqaçma meylləri müşahidə olunur (yəni müxtəlif ölkələrdə sinif sisteminə üstünlük verilməsi öz yerini sərbəst dərslərə verməkdədir, distant tədris forması sürətlə inkişaf edir və s.), yenə də əsas diqqət sistemliliyin gözlənilməsinə yönəldilir.

İbtidai təhsil üzrə inteqrativ kurikulumun yaradılmasının çox böyük əhəmiyyəti vardır. Biz tədqiqat apararkən hər şeydən öncə kurikulumlar və onların növlərini araşdırmalıyıq.

Kurikulum modellərindən danışarkən model anlayışının özünə aydınlıq gətirmək lazım gəlir. Model-təhsil prosesinin səmərəliliyini təşkil etmək üçün həyata keçirilən fəaliyyət nümunəsidir.

Təhsil özüdə çox şaxəli bir proses kimi müxtəlif modellərə malikdir. Təhsilin idarəetmə,

nəzarət, qiymətləndirmə, təlimat və s. modelləri mövcuddur. Model dedikdə, hər hansı bir problemi həll etmək üçün cəhd, eləcə də artıq mövcud olan keyfiyyətli bir modelin təkrarı və ya yeni bir model yaratmaq başa düşülə bilər. Təbii ki, mövcud situasiyanın düzgün analizi tədris prosesinin iştirakçısına səmərəli modeli seçmək və ya yeni model yaratmaq üçün əhəmiyyətli kömək edə bilər.

Fərqli təhsil modellərindən istifadə etməklə pedaqoji prosesdə daha çox səmərəlilik və məhsuldarlıq əldə etmək olar.Əlverişli modelin istifadəsi təhsilin keyfiyyətini də artırmağa və daha yüksək nəticələr əldə etməyə kömək edir. Bundan başqa ənənəvi modellərindən fərqlənən bir modelin tətbiqi müəllimi öyrənmə və yenilənmə prosesinə sövq edir.

Dünya təcrübəsində geniş istifadəsi ilə seçilən bir neçə kurikulum modelləri məlumdur. Kurikulum modelləri arasında məşhur və çox istifadə olunan modellərindən biri 1940-cı ildə Amerikalı alim Ralf Tayler tərəfindən yaradılan və onun adını daşıyan Tayler modelidir. Amerikada bütün müəllimlər tədrisin inkişafı üçün Tayler modelindən və onun müxtəlif versiyalarından bu və ya digər şəkildə istifadə edir. Tayler öz tələbələrini istiqamətləndirmək üçün “Kurikulumun əsas prinsipləri” adlı kitab yazdı və bu kitabda model yaratmaq üçün ideyalarını verdi. Tayler modelində əsas xüsusiyyət tədrisin mərhələli və planlaşdırılmış şəkildə verilməsidir. Yüksək keyfiyyəti və asanlıq dərəcəsi ilə seçilən bu model dörd mərhələdən ibarətdir:

1. məktəbin məqsədlərinin müəyyənləşdirilməsi;
2. məqsədlərlə əlaqəli təhsil təcrübələrinin müəyyənləşdirilməsi;
3. yeni təcrübələrin təşkil olunması;
4. məqsədlərin qiymətləndirilməsi

Birinci mərhələnin əsas xüsusiyyəti məktəbin, başqa sözlə təhsil sisteminin məqsəd və fəlsəfəsinin müəyyən olunmasıdır.

İkinci addımın məqsədi birinci mərhələnin daha da təkmilləşməsidir. Hər hansı təhsil sistemində mövcud təcrübələr öyrənilir, daha sonra yeni model onun əsasında formalaşdırılır. Ola bilsin ki, təhsilə tətbiq olunacaq yeni model öz xüsusiyyəti baxımından mövcud təcrübə ilə uyğunlaşmasın. Lakin təhsil fəlsəfəsinin və öyrənmə fəlsəfəsinin gözlənilməsi yeni modelin uğurlu nəticələr əldə etməsinə kömək olacaqdır.

Yeni təcrübələrin təşkil olunması məsuliyyətli və xüsusi diqqət tələb edən bir mərhələdir. Bu zaman mövcud təcrübə, şagirdlərin meyl və maraqları, müəllimlərin fəlsəfi və elmi yönəlişliyi, təhsilin istiqaməti, dövlətin və cəmiyyətin maraqları, məktəblərin maddi texniki baza baxımdan yetərliliyi və s. diqqət mərkəzində saxlanılmalıdır.

Tayler modelində dördüncü addım yeni məqsədlərin qiymətləndirilməsidir. Məqsəd nə qədər aydın olarsa, fəaliyyət də o qədər səmərəli nəticələrin əldə olunmasına gətirib çıxaracaqdır.

R. Tayler kurikulum modeli hazırlayarkən ictimai və sosial cəhətdən təhsili inkişaf etdirə biləcək bütün tərəfləri diqqət mərkəzində saxlamışdır. Burada həm təhsilalanların, həm təhsilverənlərin, həm cəmiyyətin ilkin ümumi məqsədləri və istəkləri nəzərə alınmış, həm də təhsilin fəlsəfi, pedaqiji, psixoloji, didaktik nəzəri və praktik tərəfləri nəzərə alınmaqla dəqiq təlim məqsədləri müəyyənləşdirilmişdir.

Stanford Universitetinin professoru Elliot Eysnerin də təhsil sahəsində hərtərəfli tədqiqatları mövcuddur. Yeni təhsil proqramlarının mahiyyətini dərindən anlayan E.Eysner özünün kurikulum modelini irəli sürmüşdür.

Eysnerin 1991-ci ildə təklif etdiyi model estetik model adlanır. O, tədris planı (kurikulum) yaratmaq üçün estetik komponentlərlə davranış prinsiplərini birləşdirməyi əsas götürür. Eysnerin fikrincə, səmərəli bir model sistematik və hərtərəfli (simmetrik) olmalıdır.

Azərbaycanda mövcud olan kurikulum Taylerin deduktiv metodu ilə Eysnerin estetik metodunun qarışığıdır. Çünki əvvəlcədən ən ümumi tədris məqsədləri müəyyən olunur, daha sonra həmin məqsədlərin alt məqsədləri ayrılır və müxtəlif yanaşmalarla təlim məqsədlərinə

nail olunur. Bu zaman Eysnerin qeyd etdiyi kimi həm məqsədli, həm struktur, həm tədris, həm pedaqoji və həm də qiymətləndirici yanaşma vasitəsi ilə təlim məqsədlərinin reallaşdırılmasına və təlimdə səmərəli nəticələr əldə olunmasına çalışılır.

Qeyd etmək lazımdır ki, əslində yuxarıda adını çəkdiyimiz bütün modellər faydalıdır. Lakin məktəbin maddi durumunu, struktur formasını və yönəlişliyini təyin edərək bu modellərdən birini tətbiq etmək olar. Bunun üçün də təbii ki, güclü təhsil ekspertlərinə ehtiyac vardır.

Kurikulumun modelləri ilə yanaşı, növləri də həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Dünya təcrübəsində təhsil proqramlarının müxtəlif növləri mövcuddur. Bəzi ölkələr kurikulumların yalnız bir növündən istifadə edirsə, bəziləri iki və daha çox növdən ya ayrı-ayrılıqda, ya da inteqrasiya olunmuş şəkildə istifadə edirlər.

İnkişaf etmiş ölkələrin əksəriyyətində müəllimlərə kurikulumları seçməkdə sərbəstlik verilmişdir. Çünki daxil olduğu sinfin bütün xüsusiyyətlərini yalnız o sinfə dərs deyən müəllim bilir. Bundan başqa hər bir müəllimin özünəməxsus strateji hədəfləri və tədris xüsusiyyətləri olur ki, bəzən seçilmiş tədris proqramı həmin xüsusiyyətlərə uyğunlaşmır. Nəticədə tədrisin keyfiyyəti və səmərəlilik səviyyəsi arzu olunan səviyyədə olmur. Sərbəst kurikulum seçən müəllim sinfinin kapitanı olmağı bacarır və idarəetməni daha yaxşı həyata keçirə bilir.

Dünya təhsil sistemində ibtidai təhsilin forma və məzmununun təkmilləşdirilməsi problemi diqqəti cəlb edən ən vacib məsələlərdəndir. İbtidai təhsil üzrə inteqrativ modelin yaradılması təlim keyfiyyətinin yüksəldilməsini şərtləndirən mühüm amillərdən biridir.

Dünyanın əksər ölkələrində ibtidai təhsilin müddəti 5 il və daha artıqdır, ibtidai təhsil icbaridir, ibtidai təhsil müddətində tədris olunan fənlər daha geniş aspektə malkdir, ibtidai təhsilin əsas məqsədi şagirdləri müstəqilliyə alışdırmaq, onlarda əqli, mental və fiziki xüsusiyyətlərin, eləcə də idrak və yaradıcılığın inkişaf etdirilməsidir, ibtidai təhsil mərhələsində şagirdlərə şəxsi, sosial və vətəndaşlıq, eləcə də dini biliklər öyrədilməkdədir, məktəblər maddi-texniki baza baxımından tam təchiz olunmuşdur, təhsil vasitələrinin, dərslərin və proqramların seçilməsində sərbəstlik vardır, müəllim kadrlarının formalaşdırılması və seçilməsi xüsusi diqqət mərkəzindədir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində nəzərdə tutulan prioritet istiqamətlərə nəzərən Azərbaycanda təhsilin dünya ölkələrində mövcud olan standartlara uyğunlaşdırılması üçün strateji işlər (təhsilin 12 illik olması, şəxsiyyətyönümlü təhsil sisteminin yaradılması, keyfiyyətli təhsilverənlərin formalaşdırılması, şəffaf idarəetmə mexanizminin yaradılması və s.) həyata keçirilməkdədir. Hazırda Azərbaycan Təhsil sistemində inkişaf etmiş xarici ölkələrin təhsil sisteminə inteqrasiya olunmaqla, şagirdə yönəlmiş nəticə və şəxsiyyətyönümlü təhsilə üstünlük verilir. Şəxsiyyətyönümlü təhsil, təhsil texnologiyalarının uğurlu inteqrasiyasına imkan verir. Yeni pedaqoji texnologiyaları tətbiq etməklə təlim prosesini fəallaşdırmaq, şagirdlərin liderlik qabiliyyətini inkişaf etdirmək, bununla da təhsilin səviyyəsini yüksəltmək indiki zamanda qarşıda duran mühüm problemlərdəndir.

Təhsilin modernləşdirilməsi təhsil sisteminin qanunauyğun prosesi kimi dəyərləndirilir və dinamik proses kimi həyata keçirilir. Modernləşdirmə müasir dövrün tələblərinə uyğunlaşmaq, yeni tələb və normalara, texnoloji proseslərə uyğunlaşmaqdır. Təhsilin modernləşdirilməsində məqsəd qlobal dəyərlərin və əməkdaşlığın inkişafı naminə rəqabət aparmağa malik intellekt sahiblərinin yetişməsini təmin etməkdir. Təhsildə məzmunun modernləşdirilməsi zamanı onun həm pedaqoji-psixoloji tərəfləri, həm də nəzəri və təcrübi paradiqmaları nəzərə alınır.

Pedaqoji texnologiyalar, şagirdlərin təlim prosesində öyrənmə və anlaşmaya, bacarıq və keyfiyyətlərə yiyələnməsini həyata keçirən üsullar, tərzlər, işlər, yanaşmalar, vasitələrdir. Müasir pedaqoji texnologiyaların hamısının məzmunu, əsasən interaktivliyə görə fərqlənir.

Pedaqoji texnologiyalartəlim prosesində şagirdə yönəlmiş təlim, inkişafetdirici təlim, qabaqlayıcı təlim, əməkdaşlıq təlimi və qrup təlimi prinsiplərinə istinad edir. Pedaqoji texnologiyalar təlim prosesini fəallaşdırır, keyfiyyətin yüksəlməsinə müsbət təsir göstərir. Yeni pedaqoji texnologiyaların tədris prosesinə tətbiq edilməsində əsas məqsəd, tədris prosesini dəqiq idarə etməklə bərabər, təhsil məqsədlərinin əvvəlcədən yüksək səviyyədə yerinə yetirilməsinə zəmin yaratmaqdır.

Şagirdlərin yaradıcı düşünmə, biliklərə sərbəst yiyələnmə qabiliyyətlərinin inkişaf etdirilməsində, dərsin intensivləşdirilməsində, şagirdlərdə bilik və bacarıqların formalaşdırılmasında pedaqoji texnologiyalardan istifadə əsas amillərdəndir. Müasir dövrdə inteqrasiya proseslərinin tədricən güclənməsi təhsil sistemində də müvafiq olaraq modernləşdirmənin gerçəkləşdirilməsinə şərait yaratmışdır. Pedaqoji texnologiyaların müasir təhsil sisteminə səmərəli tətbiqi zamanı şagirdlər yeni ideyaların, maraqlı, səmərəli təkliflərin yaradıcısı və daşıyıcısı kimi çıxış edə bilir. Müasir dövrdə pedaqoji texnologiyaların tətbiqi müəllimin, onun pedaqoji əməyinin, iş üslubunun əsaslı şəkildə dəyişməsini tələb edir. Təhsilalanların yüksək keyfiyyətlərə malik şəxsiyyət kimi formalaşması üçün müəllimlər özləri dəyərlərin mütləq daşıyıcısı olmaqla yanaşı, xüsusi bacarıqlara malik olmalıdırlar.

Hazırda təhsildə yeni yanaşmaların tətbiqi, dünya təhsil sferasında təsil sisteminin modernləşdirilməsinin əsas strateji istiqamətlərindən biri kimi qiymətləndirilir. Ona görə də yeni texnologiyaların pedaqoji-psixoloji təhlilinin aparılması, onun yeni məzmunun hazırlanması bu günümüzün tələbidir. Müxtəlif fənlərin tədrisi zamanı pedaqoji texnologiyaların tətbiqinə aid metodik vasitələrin hazırlanması məqsədəmüvafiqdir.

### *Ədəbiyyat*

1. Humeyir Əhmədov. Qloballaşma, modernləşdirmə; yeni insan və təhsil problemləri. “Təhsil problemləri” qəz-i, 7 sentyabr, 2013

2. Ağayev Ə. Təhsilin modernləşdirilməsi:tarixilik,varislik, müasirlik. “Müasir mərhələdə pedaqoji elmin inkişaf perspektivləri” toplusu, Bakı. 2004.

## ПУТИ ИНТЕГРАЦИИ ОБРАЗОВАНИЯ В МИРОВЫЕ МОДЕЛИ (на примере естественных наук)

***Джалилова Илаха Джалил кызы***

***Резюме***

В документе «Государственная стратегия развития образования в Азербайджанской Республике» содержатся важные положения об организации образования по принципу интегративности. Достаточное количество предметов, преподаваемых в системе образования Азербайджана, и возникающие в связи с этим временные ограничения заставляют специалистов в области образования задуматься над вопросом интеграции различных предметов. Рассматривая системы образования зарубежных стран и уровень начального образования, мы видим, что преподаются схожие предметы. Сходства и идентичность заметны в области преподавания более современных предметов. Предметы по искусству (музыка, изобразительное искусство и т. д.), совместно преподаваемые как Art (Искусство) и технические науки, объединенные как Science (Наука) для большинства стран аналогичны.

## WAYS OF INTEGRATION OF EDUCATION INTO WORLD MODELS (on the example of natural sciences)

***Jalilova Ilaha Jalil***

***Summary***

In the document "State Strategy for the Development of Education in the Republic of Azerbaijan" contains important provisions on the organization of education on the principle of integrativity. A sufficient number of subjects taught in the education system of Azerbaijan,

and the time constraints that arise in connection with this, make education specialists think about the issue of integrating various subjects. Looking at the education systems of foreign countries and the level of primary education, we see that similar subjects are taught. Similarities and identities are seen in the teaching of more modern subjects. Art subjects (music, visual arts, etc.) taught jointly as Art and technical sciences combined as Science are similar for most countries.

***Rəyçi:** baş müəllim Məmmədova Aytən Rafət qızı*
***Ümumi pedaqogika kafedrasının 11 yanvar 2023-cü il tarixli iclasın 08 saylı protokolou***
***Daxil olma tarixi 15 fevral 2023-cü il***

**UOT:37**

## İŞƏGÖTÜRƏNLƏRLƏ ƏMƏKDAŞLIQ “AZƏRBAYCAN RESPUBLİKASINDA PEŞƏ TƏHSİL VƏ TƏLİMİNƏ DAİR STRATEJİ YOL XƏRİTƏSİ”NİN MÜHÜM İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

***Piriyeva Təranə Zakir qızı***
***Azərbaycan Respublikasının Təhsil İnstitutunun doktorantı***
***Bakı Qızlar Universitetinin baş müəllimi***
**piriyeva.tarana.zakir@gmail.com**

**Xülasə:** *Bu məqalədə Azərbaycan təhsil sisteminin strateji istiqamətlərdən biri kimi peşə təhsili sahəsində işəgötürənlərlə əməkdaşlıq işinin əhəmiyyətlilik səviyyəsi araşdırılmış, uzunmüddətli baxışlar və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışlar səviyyəsində işəgötürənlərlə əməkdaşlığın qurulması istiqamətləri təhlil edilmiş, bu sahə üzrə icra edilmiş işlər nəzərdən keçirilmiş, mövcud sahə üzrə problemlərin aradan qaldırılması sahəsində təkliflər irəli sürülmüşdür. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında peşə təhsili və təliminə dair Strateji Yol Xəritəsi” konkret prioritet istiqamətlər üzrə icra müddətləri və mexanizmləri, tədbirlər, nəticə indiqatorları və icra müddətləri göstərilməklə hazırlanmışdır. İşəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası Strateji Yol Xəritəsinin beş strateji hədəfindən biri olaraq müəyyən edilmişdir və bu artıq mövcud sahənin əhəmiyyətlilik səviyyəsini artırır, eyni zamanda mövcud sahədə xüsusi araşdırmaya ehtiyacı zəruri edir.*

**Açar sözlər:** strateji yol xəritəsi, peşə təhsili pilləsi, işəgötürənlərlə əməkdaşlıq, strateji prioritet hədəflər, pilot peşə təhsili müəssisələri

**Ключевые слова:** стратегическая дорожная карта, уровень профессионального образования, сотрудничество с работодателями, приоритетные стратегические цели, пилотные учреждения профессионального образования

**Keywords:** strategic roadmap, level of professional education, cooperation with employers, priority strategic goals, pilot vocational education institutions

Strategiyalar və ya strateji yol xəritələri dövlət siyasəti ilə sıx bağlı olmaqla yanaşı, onun vəzifələrinin yerinə yetirilməsini təmin edir. Strategiya yaxşı müəyyən edilmiş, ümumi komponentləri, addımları, alətləri, istiqamətləri və hədəfləri (vizyonu) özündə əks etdirən yol xəritəsidir. Müxtəlif komponentləri müəyyən edilmiş, gələcəkdə arzu olunan vəziyyətə nail olmaq vasitəsi və mühüm planlaşdırma prosesinin nəticəsi kimi strategiya- həyata keçirilən bir fəaliyyətdir. Bu fəaliyyət isə bənzərsiz və təkrarolunmayan səriştələr əsasında icra edilməlidir. Səriştələr funksiyaları və tapşırıqları uğurla yerinə yetirmək üçün tələb olunan əlaqəli bilik, bacarıq və vərdişlərin toplusunu yüksək məharətlə tətbiq etmək və ya istifadə